**Sakinlərin Müraciət Xidmətinə 12 il ərzində daxil olmuş müraciətlərin statistikası**

Yerli icra hakimiyyəti orqanları arasında ilk olaraq Binəqədi Rayon İcra Hakimiyyətində yaradılmış Sakinlərin Müraciət Xidmətinin fəaliyyətinin 12 ili tamam oldu.

Xidmət vətəndaşlarla operativ ünsiyyətin yaradılması, onların rayonda fəaliyyət göstərən dövlət qurumlarına müraciət imkanlarının asanlaşdırılması məqsədilə yaradılmış, bütün müasir avadanlıqlarla və sürətli kommunikasiya sistemi ilə təchiz edilərək 24 saat fasiləsiz olaraq fəaliyyət göstərir. Bütün bu imkanlar Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən vətəndaşlara göstərilən xidmətlərin hər bir vətəndaş üçün əlçatan olmasını təmin etmək məqsədini daşıyır.

Fəaliyyətə başladığı dövrdən Sakinlərin Müraciət Xidmətində cavablandırılan zənglərin sayı **319547**, birbaşa cavablandırılmış zənglərin sayı **256403** və ya **80,2 %**, yaradılmış əks əlaqələrin sayı **75765**, günlük orta zəng sayı **73**, tərtib edilmiş şikayət vərəqələrinin sayı **63115** və ya **19,7 %** olmuşdur.

Hesabat dövrü ərzində şikayət xarakterli **63115** müraciətin **51858**-i və ya **82,2 %-i** tam həll olunmuş, **4480**-i və ya **7,1 %-i** qismən həll edilmiş, **6777**-si və ya **10,7 %-**nə müvafiq izahat verilərək həll edilmişdir.

12 il ərzində daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə müraciətlərin **26134**-ü və ya **41,4 %-**i su-kanalizasiya (o cümlədən 16642-si su təchizatı, 9492-si kanalizasiya problemləri ilə əlaqədar), **13469**-u və ya **21,3** %-i qaz təchizatı, **6885**-i və ya **10,9 %-**i lift problemləri, **5119**-u və ya **8,1 %-**i istilik təchizatı, **4032**-i və ya **6,4 %**-i sakinləri narahat edən digər məsələlər, **2856**-sı və ya **4,5 %-**i elektrik təchizatı ilə bağlı, **2161**-i və ya **3,4 %**-i məişət tullantıları ilə əlaqədar, **1225**-i və ya **1,9 %**-i küçələrin işıqlandırılması idarəsi ilə əlaqədar, **619**-u və ya **1 %**-i binaların zirzəmisinin dezinfeksiya edilməsi ilə əlaqədar, **615**-i və ya **1 %**-i təhlükəli vəziyyətdə olan ağacların budanması ilə əlaqədar olmuşdur. Xidmətə daxil olan təşəkkürlərin sayı isə **2953** vahid olmuşdur.



## 2013-2024-cü illər üzrə Sakinlərin Müraciət Xidmətin daxil olmuş müraciətlərin daxil olma istiqamətləri
## (sahə və qəsəbə ərazi icra nümayəndəlikləri üzrə)




| | 1 saylı SİƏD nümayəndəlik | Binəqədi QİƏD nümayəndəlik | Biləcəri QİƏD nümayəndəlik | M.Ə.Rəsulzadə QİƏD nümayəndəlik | 2 saylı SİƏD nümayəndəlik | Xocəsən QİƏD nümayəndəlik | 28 May QİƏD nümayəndəlik |
|---|---|---|---|---|---|---|---|
| 2013-2024 | 17689 | 14858 | 11799 | 7271 | 6925 | 4485 | 87 |

## Daxil olan müraciətlərin kateqoriyalar üzrə bölgüsü (2013-2024)

| | |
|---|---|
| **Su-kanalizasiya sahəsi** | **26134** |
| **Qaz təchizatında yaranmış problemlərlə əlaqədar** | **13469** |
| **Lift təchizatı ilə bağlı** | **6885** |
| **İstilik təchizatı ilə bağlı** | **5119** |
| **Məişət tullantıları ilə əlaqədar** | **2161** |
| **Elektrik enerjisi təchizatı ilə bağlı** | **2856** |
| **Binaların zirzəmisinin dezinfeksiya edilməsi ilə əlaqədar** | **619** |
| **Küçə və prospektlərin işıqlandırılması ilə əlaqədar** | **1225** |
| **Yaşıllaşdırma sahəsi ilə bağlı** | **615** |
| **Rabitə sahəsi ilə bağlı** | **86** |
| **Sakinləri narahat edən digər məsələlər** | **3946** |